# COP29-un turizm üfüqləri

**Noyabrın 11-dən 24-dək Bakıda gerçəkləşəcək dünya miqyaslı tədbirlərdən biri olan COP29 beynəlxalq ictimaiyyətin əsas diqqətini Azərbaycana yönəldəcək. Ətraf mühitin qorunması, yaşıl enerjiyə keçidin sürətləndirilməsi və ekoloji turizmə üstünlük verilməsi mövzuları da sessiyada diqqətdə saxlanılacaq. Bu beynəlxalq tədbir mədəni və tarixi irsimizi, ekoturizm, aqroturizm və dayanıqlı turizm imkanlarımızı dünyaya tanıtmaq baxımından da faydalı olacaq.**



Bəs COP29 turizm sektorunun üzərinə nə kimi öhdəliklər qoyur və mütəxəssislər bu tədbirin Azərbaycan turizminə müsbət təsirini necə izah edirlər? Artıq bir çox turizm agentlikləri bu tədbirdə iştirak etmək üçün Bakıya gələcək xarici qonaqların otellərə yerləşdirilməsi, istirahətlərinin təşkili, paytaxtımızla tanışlığı kimi məsələləri indidən diqqətdə saxlamağa başlayıblar. Qonaqların rahat şəkildə qeydiyyatdan keçmələri və yerləşmələri üçün vahid onlayn rezervasiya platforması da hazırlanıb.

**Turizm üzrə ekspert Ceyhun Aşurov bildirdi ki, COP29-la bağlı texniki-təşkilati hazırlıq işləri uğurla davam etdirilir:**



– Bakının evsahibliyi edəcəyi bu möhtəbər tədbirə qatılmaq üçün 50-dən çox dövlət başçısının, 70–80 min xarici ölkə vətəndaşının Azərbaycana gəlişi gözlənilir. Belə möhtəşəm tədbirlər, şübhəsiz, turizmin inkişafına də təsirsiz ötüşmür. Bu qlobal miqyaslı tədbirin Azərbaycana salınması həm də dövlətimizin iqtisadi-siyasi gücünü və təhlükəsizlik səviyyəsini göstərir. Təsadüfi deyil ki, ölkədə hazırlıq işləri ən yüksək sürətdə həyata keçirilir. Tədbirdən sonra geri qayıdan insanlar Azərbaycan tarixinin, mədəniyyətinin, mətbəxtinin və ölkəmizin görməli yerlərinin yaratdığı təəssüratı öz ölkələrində paylaşacaqlar. Bu, həm də qonaqların yenidən geridönüşünə səbəb olacaq. Turizm Azərbaycanda prioritet sahədir. COP29 da turist axını üçün əlverişli platforma rolunu oynayacaq.

**Turizm üzrə digər ekspert Ruslan Quliyev də beynəlxalq miqyaslı tədbirlərin Azərbaycanda keçirilməsinin əhəmiyyətini qeyd edərək dedi ki, COP29 həm ölkənin, həm də ölkə turizminin alt sahələrinin tanıdılması baxımından böyük önəm daşıyır. Azərbaycanın bu sahədə müəyyən təcrübəsinin olduğunu deyən ekspert daha sonra dedi:**



– Bu tədbir, hər şeydən öncə, fürsət yaradır ki, Şərqi Zəngəzur və Qarabağı vaxtından əvvəl yeni turizm destinasiyası kimi tanıdaq. Bu iki ərazinin yaşıl zona elan olunması oranın turizm porensialını daha da artırır. Ölkəmizin bu gün il ərzində 5 milyondan artıq turist qəbul eləmək imkanları var. Uzun illərdir, ekoloji problemlər beynəlxalq gündəmdə əsas məsələlərdən birinə çevrilib. Artıq dünyada enerji keçidi və iqlim dəyişikliyi mövzusu xeyli aktuallaşıb. Bu isə, turizm potensialı olan ölkələrin ekoloji turizmi irəlilətməsini vacib edir. Əlbəttə, COP29 konfransı Azərbaycanın dünyada nüfuzunun daha da möhkəmləndirilməsinə töhfə verəcək. Düşünürəm ki, fürsətdən yararlana bilsək, Azərbaycan 2026-cı ilədək dünyanın 20 ən yaxşı turizm ölkəsindən biri ola bilər.

***Ceyhun ALIŞLI***

Xalq qəzeti .- 2024.- 18 iyul, (№ 149).- S.10.